Zaman qısalmayınca Qiyamət qopmaz

Əbu Hureyradan (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Zaman qısalmayınca Qiyamət qopmaz, il ay kimi, ay həftə kimi, həftə bir gün kimi, gün saat kimi və saat xurma yarpağının yanma müddəti kimi olacaq."

[Səhih] [Əhməd rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) Qiyamət gününün əlamətlərindən biri olaraq zamanın qısalmağını, və ilin ay kimi keçəcəyini, ayın həftə kimi keçəcəyini, həftənin bir gün kimi keçəcəyini, günün bir saat kimi keçəcəyini, saatın da xurma yarpağının yanıb külə döndüyü zaman kimi tez keçəcəyindən xəbər vermişdir.

http://www.sunnah.global/hadeeth/az/show/65027